**Rusiyalı alim: Bakı COP29-un keçirilməsi üçün ən əlverişli məkandır**

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) son on ildə irəliləyişə nail olunmayan ən çətin maliyyə məsələlərinin həlli gözlənilir. Yeni “Kollektiv Kəmiyyət Hədəfi” mürəkkəb məsələdir. Dünya donor və resipiyent ölkələrə bölünür. Donorlar deyirlər ki, bu rəqəm çox yüksəkdir, resipiyentlər isə daha çox vəsait istəyirlər. Bunlar çətin danışıqlardır və burada konfransın ev sahibi komandasına uğurlar arzulayıram. Ümidvaram ki, Rusiya nümayəndə heyəti uğur qazanmağa öz töhfəsini verəcək.

Bu barədə AZƏRTAC-ın müxbirinə müsahibəsində Rusiya Federasiyasının Hidrometeorologiya və Ətraf Mühitin Monitorinqi üzrə Federal Xidmətinin akademik Y.A.İzrael adına Qlobal İqlim və Ekologiya İnstitutunun direktoru Anna Romanovskaya deyib.

Agentliyin həmsöhbəti qeyd edib: “BMT-nin iqlim dəyişikliyi üzrə növbəti konfransının Bakıda keçirilməsi münasibətilə Azərbaycanı təbrik etmək istərdim. Bakı belə mühüm tədbirə ev sahibliyi etmək üçün yaxşı seçimdir. Azərbaycanın paytaxtı çoxlu sayda nümayəndənin işləməsi üçün ən əlverişli məkandır. Məndən Bakı haqqında soruşanda deyirəm ki, bu şəhəri bəyənəcəksiniz. Bakıya beşinci dəfə səfər edəcəyəm və əminəm ki, COP29, eləcə də ölkənizin təşkil etdiyi bütün tədbirlər ən yüksək səviyyədə keçiriləcək”.

Onun sözlərinə görə, hazırda müşahidə olunan iqlim dəyişikliyi təbiətə və infrastruktura deyil, bəşəriyyətə daha çox ziyan vurur. “İqlim dəyişikliyi hazırda bütün dünyada baş verir. Bunu bütün ölkələr hiss edir. Qlobal temperatur sənayedən əvvəlki səviyyələrlə müqayisədə 1,5 dərəcə Selsi artıb. Təbii ki, təhlükəli hidrometeoroloji hadisələr - güclü küləklər və davamlı yağışlar da iqlim dəyişikliyinin nəticəsidir. Bu, həm sizin, həm mənim, həm də bütün bəşəriyyət üçün çoxlu mənfi nəticə yaradır, ərzaq təhlükəsizliyini, planetimizdə bütün insanların həyatını, sağlamlığını və rifahını təhdid edir. Bu, ilk növbədə, bəşəriyyətin problemidir”, - deyə alim hesab edir.

İqlim dəyişikliyinə atmosferə atılan istixana qazlarının daha çox təsir etdiyini vurğulayan Romanovskaya planeti ən çox çirkləndirən əsas dövlətlərin - ABŞ, Hindistan və Aİ ölkələrinin adlarını çəkib.

“Azərbaycan da, Rusiya da neft ölkəsidir. Lakin dünya mədən yanacaqları ilə deyil, onların emissiyaları ilə mübarizə aparır. COP29 ən çətin konfranslardan biri olacaq. Çünki 197 ölkənin hamısı bu tədbirə öz maraqları ilə gələcək və konfransın uğurlu keçməsi üçün ev sahibi ölkə - Azərbaycan diplomatiya möcüzələri nümayiş etdirməlidir ki, bütün tərəflər konsensusa gələ bilsin. Bu işdə təşkilatçılara uğurlar arzulayıram”, - deyə institut direktoru müsahibənin sonunda əlavə edib.

**Fəridə Abdullayeva**
**AZƏRTAC-ın xüsusi müxbiri, Moskva**

**AZƏRTAC**
**2024, 2 noyabr**